# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№307/2** **27 dekabr 2018-ci il**

**Azərbaycanda auditor xdimətinin müasir vəziyyəti və inkişaf istiqamətləri" mövzusunda keçirilmiş sosioloji sorğunun nəticələri barədə**

Auditorlar Palatasının 2018-ci il üzrə iş planının 7.5-ci "Palatanın rəsmi internet səhifəsində interaktiv sorğunun aparılması" barədə müvafiq bəndinin icrası ilə əlaqədar Auditorlar Palatası sədrinin "Azərbaycan Respublikası Auditorlar Palatası və Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu tərəfindən "Azərbaycanda auditor xidmətinin müasir vəziyyəti və inkişaf istiqamətləri" mövzusunda sosioloji sorğunun keçirilməsi" barədə 2018-ci il 1 avqust tarixli 1/49 nömrəli sərəncamına əsasən yaradılmış işçi qrupu tərəfindən aparılmış sorğunun nəticələri ilə əlaqədar təqdim edilmiş icmal-təhlili müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Azərbaycanda auditor xidmətinin müasir vəziyyəti və inkişaf istiqamətləri" mövzusunda keçirilmiş sorğunun nəticələri barədə icmal-təhlil bəyənilsin.
2. Sorğu nəticəsində aşkar edilmiş auditin inkişafına dair problemlərin həlli məqsədi ilə müvafiq mövzuların Auditorlar Palatasının iş planına daxil edilməsi məqsədəmüvafiq hesab edilsin.
3. "Azərbaycanda auditor xidmətinin müasir vəziyyəti və inkişaf istiqamətləri" mövzusunda keçirilmiş sorğunun nəticələri barədə icmal-təhlilin hazırlanmasında yaxından iştirak etmiş Palatanın Auditin təşkili, akkreditasiya və üzvlük şöbəsinin müdiri E.Bebudovaya və Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun Maliyyə, pul və kredit şöbəsinin müdiri Y.Məmmədova təşəkkür elan olunsun.

**Şuranın sədri** **Vahid Novruzov**